## Azərbaycan dili və ədəbiyyat fənni üzrə olimpiada sualları
## Final turu
## Yuxarı yaş qrupu

**1. Əli Vəliyevin "Nənənin söhbəti" hekayəsində Fəxrəndə qarı heyvanların yaşına görə adları haqda nəticələrinə məlumat verir. Aşağıdakı boşluqlara müvafiq heyvan adlarını yazın: (8 bal)**

Qara rəngli, yekəqarın, iribuynuz heyvana camış deyirlər. İnəkdən çox süd verir. Südü yağlıdır. Camışın qatığı ilə qaymağı, inəyin südü ilə yağı dərmandır. Camışın balası bir yaşına qədər ________ (**balaq**), iki illiyində ______ (**kəlçə**) olur. Böyüyəndən sonra dişisi _______ (**camış**), erkəyi ________ (**kəl**) adlanır.

Qoyunun balası quzu, _______ (**toğlu**), ________ (**şişək**), ______ (**erkək**), _______ (**azman**) adı ilə adlanır, atalarına _____ (**qoç**), analarına ______ ( **qoyun**) deyirlər.

IV. Dəvənin balasına ___________ (**köşək**), iki yaşında olanda ________ (**daylaq**) deyirlər. Üç yaşına adlayandan sonra __________ (**nər-maya**), __________ (**lök-arvana**) , _________ (**buğur-haça- maya**), ________________ (**balxımaya-göyün**) olur.

**2. Cədvəldəki fikirlərin doğru və yaxud yanlış olmasına əsasən uyğun xanaları işarələyin. (8 bal)**

| | doğrudur | yanlışdır |
|---|---|---|
| 1. Yalnız baş üzvlərdən ibarət olan cümlədə təsirlik hallı söz işlənə bilər. | + | |
| 2. İsmi xəbərin ifadə vasitəsi feil də ola bilər. | + | |
| 3. Cümlədə mübtəda yoxdursa, həmin cümlədə uzlaşma əlaqəsi ola bilməz. | | + |
| 4. Kontekstdən asılı olaraq "ümid, arzu, kamil" sözləri konkret və mücərrəd, yaxud ümumi və xüsusi isim kimi işlənə bilər. | | + |
| 5. Yalnız bir qrammatik şəkilçi olduğunu nəzərə alsaq, "ağrıdan" sözü cümlədə müstəqil şəkildə yalnız tamamlıq vəzifəsində ola bilər. | | + |
| 6. "Dağıdıcı" və "dağınıq" sözləri eyniköklü sözlər deyil. | + | |
| 7. Bir-biri ilə heç vaxt sintaktik əlaqədə olmayan cümlə üzvlərindən cümlə yarana bilməz. | | + |
| 8. "Əlində qılınc" ifadəsinin tərəflərini cümlə daxilində müxtəlif cür sintaktik təhlil etmək olar. | + | |

**3. Cədvəldə səhv yazılmış sözləri müəyyən edib qarşısında düzgün variantını yazın. (3 bal)**

| ***Sözlər*** | ***Düzgün yazılışı*** |
|---|---|
| 1. yeknəsəq | |
| 2. koleydoskop | **kaleydoskop** |
| 3. təəssüb | |
| 4. komfora | **kamfora** |
| 5. diskinmək | **diksinmək** |
| 6. izolyasiya | |
| 7. politra | **palitra** |
| 8. kompramis | **kompromis** |
| 9. məhhəcər | **məhəccər** |
| 10. daşqalaq | |

**4. "Saxlamaq" sözünün 10 müxtəlif mənasını yazın və cümlədə işlədin. (5 bal)**

1) Saxlamaq – Bir şeyi əldə,dişdə,ağızda tutmaq,yerə düşməyə qoymamaq.
2) Saxlamaq – Hərəkətini kəsmək, əyləmək, dayandırmaq.
3) Saxlamaq – Getməsinə izin verməmək.
4) Saxlamaq – Bir şeyi yığıb toplamaq, həvəskarı olmaq heyvan saxlamaq.
5) Saxlamaq – Yaşamaq üçün maddi şeylərlə təmin etmək.
6) Saxlamaq – Mühafizə etmək,qorumaq.
7) Saxlamaq – Gizlətmək,heç kimə göstərməmək.
8) Saxlamaq – Dayaq olmaq,yıxılmağa,uçmağa,qoymamaq
9) Saxalamaq – Ehtiyyat görmək, qısa azuqə saxlamaq
10) Saxlamaq – Müəyyən bir iş üçün özünə qulluqçu tutmaq.
11) Saxlamaq - Əvvəlki keyfiyyəti qorumaq.
12) Saxlamaq – Sözünü işini dayandırmaq, yarımçıq kəsmək
13) Saxlamaq – Sözlərə qoşulmaq məcazi məna çalarları – oyaq saxla,başını saxla,dilini saxla,özünü saxla,göz üstə saxla.

Və s.

**5. Verilən nümunələri müəlliflərini müəyyən edin. (5 bal)**

*1. Xahişin tərki-dili can idi mən həm etdim.*

*Göylə ey yar, görüm şimdi nə fərimanın var?* **Müəllif:** ________***(M.Ə.Sabir)***_______

*2. Həqiqət olmasa, olmaz intizam,*

*Dünya həqiqətlə dolanır müdam.* **Müəllif:** _________***(A.Bakıxanov)***_________

*3. Dostlarım düşdü uzaq, getdi Vətən!*

*Qaldı bir xəstə ürək, xəstə bədən!* **Müəllif:** ________***(M.Şəhriyar)***___________

*4.Dilsiz,sağır göylərə dirək oldu haqq səsi,*

*Başlandı bu ölkənin meydan mübarizəsi* **Müəllif:** ________***(B.Vahabzadə)***______

*5. Həm eşq yolunda çox yügürmüş,*

*Həm çox sitəmi-zəmanə görmüş.* **Müəllif:** _________***(M.Füzuli)***_______

**6. Cədvəldə verilmiş sözlərə qarşılıq ola biləcək sözləri aşağıdakı sözlərin arasından seçin və qarşısında yazın. (5 bal)**

| **Söz** | **Qarşılığı** |
|---|---|
| Termin | **istilah** |
| Mərsiyə | **növhə** |
| Rişə | **kök/əsas** |
| Nazlı | **yosma** |
| Rübab | **ilham pərisi** |
| Xunxar | **qaniçən** |
| Rəncbər | **əkinçi** |
| Zəhər | **ağu** |
| Rakurs | **baxış bucağı** |
| Xeyriyyəçi | **mesenat** |

**7. Verilmiş cümlələrdə məlumat baxımından düzəldilməsi lazım olan yerlər varsa, düzəldin və yenidən yazın. (5 bal)**

1. N.Vəzirov "Adı var, özü yox" komediyasını 1895-ci ildə qələmə almışdır.

2. XVII-XVIII əsrlər ədəbiyyatımızda yazılı ədəbiyyat şifahi ədəbiyyata təsiri xeyli güclənmişdir.

3. M.Füzulinin "Leyli və Məcnun" əsərində sosial bərabərsizlik Leyli ilə Məcnunun qovuşmasına mane olur.

4. 1928-1932-ci illər ədəbiyyatda S.Vurğunun "özünü yenidən qurmaq" dövrü kimi səciyyələndirilir.

5. "On iki yaşı olanda tikintidə fəhlə işləməyə başladı" fikri Elçinin " Talvar" əsərinin əsas qəhramanı Əliabbas kişiyə aiddir.

**Cavab:**

1. N.Vəzirov "Adı var, özü yox" komediyasını **1891-ci** ildə qələmə almışdır.

2. XVII-XVIII əsrlər ədəbiyyatımızda **şifahi** ədəbiyyat **yazılı** ədəbiyyata təsiri xeyli güclənmişdir.

3. M.Füzulinin "Leyli və Məcnun" əsərində **zəmanənin qayda-qanunları** Leyli ilə Məcnunun qovuşmasına mane olur.

4. 1928-1932-ci illər ədəbiyyatda S.Vurğunun "özünü yenidən qurmaq" dövrü kimi səciyyələndirilir. **- heç bir dəyişiklik yoxdur.**

5. "On iki yaşı olanda tikintidə fəhlə işləməyə başladı" fikri **Zahid Xəlilin " Zeynalabdin"** əsərinin əsas qəhramanı **Zeynalabdinə** aiddir.

**8. Krossvordu həll edin. (10 bal)**



**Soldan sağa**

**3.** Duymaq sözündəndir. Rübai kimi dörd misradan ibarət olan dördlükdür.

**6.**B.Vahabzadənin "Vətəndaş" şeirində hər bəndin əvvəlində təkrar olunan vətəndaş sözləri nə sayılır?

**8.**Mənası beşləmə deməkdir. Hər bəndində axırıncı iki misra başqa bir şairin qəzəlindən götürülür.

**16.**Ədəbiyytaşünaslıqda bölgü əvəzinə ...........termininindən də istifadə edilir.

**17.**"Qutadqu bilik" kitabının ikinci adı.

**18.** İtalyan sözüdür. Mənası yeni xəbər deməkdir. Hekayənin bir növüdür.

**19.**"Düratın itməyi" qolunda Koroğlunun Düratı gətirmək üçün səfər etdiyi yer.

**20.**Cəlil Məmmədquluzadənin "Qurbanəli bəy" hekayəsində Qurbanəli bəy hansı kəndin bəyi və mülkədarı olur?

**Yuxarıdan aşağaya**

**1.**Bədii əsərdə həyat hadisələrinin bir-biri ilə əlaqələndirilməsinə və müəyyən bir sistemdə qurulmasına deyilir.

**2.**Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasında Xosrovu öldürüb hakimiyyəti ələ keçirən obraz.

**4.**M.İbrahimovun "Azad" hekayəsində Azadı hansı adla çağırardılar?

**5.**"Ana rəhmi" əfsanəsində hansı Azərbaycan şairinin obrazı canlandırılmışdır.

**7.**Başqa bir yazıçının bu və ya digər əsərinin təsiri altında, bənzətmə yolu ilə yaradılan əsərə deyilir

**9.**Klassik Şərq poeziyasında hər bəndi 7 misradan ibarət şeir şəkli.

**10.**Müəllifin qələmə aldığı hadisələrin əsərdəki ardıcıllığı

**11.**Abbasqulu ağa Bakıxanov "Hikmətin fəziləti" əsərində 3 sualın cavabı: hünər, yaxşılıq,............

**12.**Bədii əsərdə bir adamın öz müsahibinə, səhnədəki digər surətlərə, yaxud öz-özünə müraciətlə söylədiyi nitqdir.

**13.**Səməd Vurğunun əsl soyadı?

**14.**Oxucunun, şərhçinin ədəbi əsəri öz sözü ilə nəql etməsi

**15.** Dini məzmun daşıyır. Allahın xaliq bəndənin məxluq olduğu təsdiq edilir.

**9. Aşağıdakı mətnlərdə qarışıq verilmiş cümlələri düzgün ardıcıllıqla düzsək, hansı cümlə üçüncü yerdə qərarlaşacaq? (6 bal)**

1. I.Müəlliflər və xəttatlar onların üstünü yazandan sonra ipək səhifələri üst-üstə yığıb cildçiyə verərdilər. II.Məlum olduğu kimi, Çindən Avropaya gedən İpək yolu Azərbaycandan keçirdi. III. Nizami Gəncəvinin əsərlərində oxuduğumuz bir çox misralar da həmin dövrdə ipək parça üzərində yazının geniş yayıldığını göstərir. IV.M.ö. II əsrdən başlayaraq Çindən gələn karvanlar hər il Azərbaycana minlərlə ton ipək parça gətirirdi. V. Azərbaycan xəttatlarının ən çox istifadə etdikləri yazı materiallarından biri də ipək parça idi.

**Cavab: ___V____**

**2**. I. İnşasına 1173-cü ildə başlanan Piza qülləsi 1274-cü ildə üçüncü mərtəbəsinin inşası tamamlanmadan əyilməyə başladı. II. Qüllənin yerin cazibə qüvvəsinə "meydan oxuyan" bu əyri duruşu bir çoxlarının diqqəti cəlb etdi. III. Uzun illər təhlükəsizlik məqsədi ilə çıxılması qadağan olunmuş qüllə bünövrəsinin möhkəmləndirilməsindən sonra 2001-ci ildə yenidən ziyarətçilərin üzünə açıldı. IV. Təcrübələrinin bir hissəsini bu qüllədə aparan məşhur alim Qaliley də bunlardan biri idi. V. Qüllənin əyilməsinə baxmayaraq tikinti işləri davam etdirilidi və abidə 1350-ci ildə tamamlandı.

**Cavab: ___II___**

**3.** I. Xasiyyətcə adamayovuşmaz olan İsaak məktəbdə o qədər də fəal deyildi.II.Onun valideynləri azsavadlı adamlar idilər. III.İsaak Nyuton 1643-cü ildə İngiltərədə fermer ailəsində dünyaya gəlmişdir IV. Belə bir uşağın gələcəkdə böyük alim olacağı heç kəsin ağlına belə gəlmirdi. V.Lakin uşaqlarına yaxşı təhsil verməyə çalışırdılar.

**Cavab: ___V____**

**10. "Koroğlu" dastanı ilə bağlı verilmiş tapşırıqları yerinə yetirin. (20 bal)**

*"Öz yayılma vüsətinə görə dünya eposunda "Koroğlu" kimi bir əsər təsəvvür etmək çətindir. O, din və dil ayrılıqlarına baxmayaraq, orta əsrlərdə bütün siyasi-inzibati sərhədləri aşmış, ən azı, Qafqaz, İran, Əfqanıstan, Orta Asiya, Ərəbistan, Sibir və Avropanın bir sıra xalqları içərisində çox geniş şəkildə yayılmış, variantlar, versiyalar əmələ gətirmişdir."*

**Sitatın müəllifi: _____Məmmədhüseyn Təhmasib___** (0,5 bal)

1) Doğru və yanlışları seçin: (3.5 bal)

| No | | Doğru | Yanlış |
|---|---|---|---|
| 1 | Hasan paşa Qıratı qaçırmağı müqabilində qızı Dona xanımı Keçəl Həmzəyə verməyə boyun olsa da, axırda sözünə əməl etmir. | | + |
| 2 | Kürdoğlu (Həsən) Koroğlunu iki dəfə yıxıb başını kəsmək istəməsə də, Koroğlu onu bir dəfə yıxıb başını kəsmək istəyir. | + | |
| 3 | Koroğlu dəlilərindən Bəlli Əhmədi İstanbula göndərir ki, Nigar xanımdan xəbər öyrənsin. | | + |
| 4 | Koroğlu ahıl vaxtlarında tüfənglə ilk dəfə tanış olanda misri qılıncı belindən açıb yerə atır. | + | |
| 5 | Paşalara, xanlara qan udduran qoç Koroğlu Ələmqulu xanla dost, Əhməd xanla qohum idi. | + | |

2) Verilmiş nümunələrlə bağlı sualları cavablandırın: (5 bal)

***I*** *- Eyvaz ayağa qalxdı. Aşıq Cünun baxdı ki, vallah bu bir oğlandı ki, iyidlikdə Rüstəmzal, gözəllikdə Yusif onun əlinə su tökməyə yaramaz. Ürəyində dedi, ay gidi dünya, axtardığımı tapmışam. Elə Koroğlu, telli Nigara layiq oğlandı ki var.*

***II*** *- Ala gözlü Nigar, səni*
*Mən Çənlibelə aparram.*
*Çəkərəm Qırat tərkinə,*
*Dönərəm yelə aparram.*

***III*** *- Axır əcəl gəldi, yetdi hay, haray!*
*Çəkdiyin qovqalar bitdi hay, haray!*
*Tüfəng çıxdı, mərdlik getdi hay, haray!*
*Mənmi qocalmışam, ya zəmanəmi?*

***IV*** *- Necə ki Misri qılınc sənin belində, sən də Qıratın belindəsən, özü də bu Çənlibeldəsən, sənə heç kəs dov gələ bilməyəcək. Ancaq bu həndəvərdə manşur bir qacaq var. Adına Dəli Həsən deyərlər. Özünü bircə ondan gözlə!..*

*V – Hasan paşa, mənim atam Alı kişi səni kişi bilib, bu iki atı sənə bağışlamaq istədi. Bu yaxşılığın əvəzində sən bu atların üstündə onun iki gözlərini çıxartdırdın. Odu ki, bu Çənlibelə gələndən mən əhd eləmişəm. İndi əhdim yerinə gəlib. Nə qədər ki, ömrün var, Çənlibeldə qalıb bu iki ata mehtər olacaqsan.*

***VI*** *- Bir atı var Alapaça,*
*Aman vermir Qırat qaça,*
*Şeşpərinin ucu haça,*
*Giziroğlu Mustafa bəy.*

1. Nümunələr hansı qollara aiddir? _______**Koroğlunun Türkman səfəri (Eyvazın Çənlibelə gətirilməyi); Koroğlunun İstanbul səfəri, Koroğlunun qocalığı, Alı kişi, Hasan paşanın Çənlibelə gəlməyi, Durna teli (Bağdad səfəri )**

2. Hadisələrin dastan üzrə başvermə ardıcıllığını nəzərə alaraq nümunələri (roma rəqəmlərini) düzgün sıralayın. ______**IV, II, I, VI, V, III**_________

3) Dastanda Koroğlu və dəlilərinin müxtəlif şəhərlərə səfərləri və bu səfərlərdən dönərkən paşa və xan qızlarını özləri ilə Çənlibelə gətirib onlarla evlənmələri də təsvir olunur. Qeyd olunanları nəzərə alaraq verilmiş boşluqları doldurun. (3 bal)

| Dəlilər | Şəhərlər | Xanımlar |
|---|---|---|
| ***Koroğlu*** | ***İstanbul*** | ***Nigar xanım*** |
| ***Dəmirçioğlu*** | ***Ərzurum*** | ***Telli xanım*** |
| ***İsabalı*** | ***Ərzincan*** | ***Dünya xanım*** |
| ***Bəlli Əhməd*** | ***Rum*** | ***Məhbub xanım*** |
| ***Eyvaz*** | ***Qars*** | ***Hürü xanım*** |

4) ***Çünki oldun dəyirmançı***
***Çağır gəlsin dən, Koroğlu!***
***Verdin Qırı, aldın Dürü,***
***Döy başına, yan Koroğlu!*** – nümunə ilə bağlı aşağıdakıları cavablandırın. (2 bal)

1. Nümunə dastanın hansı qoluna aiddir? ____**Həmzənin Qıratı qaçırması**__

2. Nümunədə işlənmiş zərb-məsəlin mənasını yazın.

___***Çünki oldun dəyirmançı, çağır gəlsin dən, Koroğlu***

**Hər hansı səbəbdən xoşagəlməz vəziyyətə düşmüş adamın həmin vəziyyətlə barışmağa məcbur olduğunu bildirən ifadə**.

_____

5) "Koroğlu və Bolu bəy" qolundan verilmiş hadisələrin düzgün ardıcıllığını müəyyən edin. (2 bal) *(Tam cavab olduqda bal verilir.)*

1. Koroğlu: "Olacağa çarə yoxdur" – deyərək qədəri ilə razılaşır.
2. Paşaların Çənlibelə qoşun çəkməsi xəbərini Aşıq Cünun dəlilərə çatdırır.
3. Koroğlunu əli-qolu bağlı suya basırlar.
4. Qoşun böyükləri Bolu bəyi məzəmmət edirlər.
5. Qəcər Alı Koroğlu ilə döyüşür.

Cavab: ______**3,4,5,2,1**__

6) "Kitabi-Dədə Qorqud" və "Koroğlu" dastanına aid obrazları müvafiq qaydada qruplaşdırın. (4 bal) *(Səhv cavablar bala təsir edir.)*

*Halaypozan, Dəli Domrul, Kosa Səfər, Şir Şəmsəddin, Tüpdağıdan, Dəli Mehtər, Dəli Dondaz, Tanrıtanımaz, Dönəbilməz Tülək Vuran, Dəli Budaq, Dəli Həsən, Bükdüz Əmən, Toxmaqvuran, Gürcüoğlu Məmməd, İmran*

**"Kitabi-Dədə Qorqud": _____*Dəli Domrul, Şir Şəmsəddin, Dəli Dondaz, Dönəbilməz Tülək Vuran, Dəli Budaq, Bükdüz Əmən, İmran***

**"Koroğlu": ____*Halaypozan, Kosa Səfər, Tüpdağıdan, Dəli Mehtər, Tanrıtanımaz, , Dəli Həsən, , Toxmaqvuran, Gürcüoğlu Məmməd,***

**Gənc linqvist rubrikası**

*Əziz şagirdlər, bu hissədə verilən tapşırıqlar sizin ümumi linqvistik biliyinizi, tədqiqatçılıq qabiliyyətlərinizi və dil duyumunuzu qiymətləndirmək məqsədilə hazırlanmışdır. Bu suallar bəzən bilmədiyiniz, hətta indiyə qədər barəsində eşitmədiyiniz dillər və yazı sistemləri ilə də bağlı ola bilər. Tapşırıqlarda verilən materialları düzgün məntiqlə təhlil etməyiniz cavabları tapmağa kömək edəcəkdir. Məlumat üçün qeyd edək ki, dünya dilçilik olimpiadalarında bu tip suallardan geniş istifadə olunur.*



## 11. Yapon yazısı* (cəmi 13 bal)

Bakıda Uzaq Şərq mətbəxi ilə məşhur olan restoranların birində müştərilərə təqdim olunan menyuda bəzi içkilərin adı yapon yazısı ilə yazılmış və qarşılıqları Azərbaycan dilində verilmişdir:

| | |
|---|---|
| ミルクカクテル（チョコ味）<br>Südlü kokteyl (şokalad dadı) | イチゴと生姜<br>Çiyələk zəncəfil ilə |
| ミルクカクテル（バニラ味）<br>Südlü kokteyl (vanil dadı) | バナナとバニラ<br>Banan vanil ilə |
| ミルクカクテル（イチゴ味）<br>Südlü kokteyl (çiyələk dadı) | バナナ入りホットチョコ<br>İsti şokolad banan ilə |
| タイム入り紅茶<br>Qara çay kəklikotu ilə | ミルク入りホットチョコ<br>İsti şokolad süd ilə |
| 生姜入り茶<br>Çay zəncəfil ilə | 茶<br>Çay |

**Qeyd:** İfadələrdəki sözlərin ardıcıllığı dilimizlə müqayisədə uyğun gələ və ya gəlməyə bilər. Leksik mənalı sözləri bir-biri ilə əlaqələndirmək üçün qrammatik ünsürləri (köməkçi nitq hissələri, məsələn ***ilə***) bildirən işarələrdən də (burada と və 入り) olunur.

***Məlumat:** *Yapon dili Yaponiyanın rəsmi dövlət dilidir. Dünyada 125 milyondan çox insan bu dildə danışır. Yapon dili morfoloji xüsusiyyətinə görə Azərbaycan dili kimi aqlütinativ*

*(iltisaqi) dil hesab olunur. Bu baxımdan yapon dilinin tipoloji cəhətdən türk dillərinin də daxil olduğu Altay (Ural-Altay) dillər ailəsinə mənsub olması haqqında müasir elmdə fərziyyələr mövcuddur.*

*Yapon yazı sistemi 3 əsas hissədən: "kanji" (heroqliflər-əsasən çin yazısı əsasında yaranmışdır), və iki əlifbadan (heca yazısı) – "katakana" və "hiraqana"dan ibarətdir. Hecavi əlifbalarda bir hərf işarəsi bir səsi yox, əsasən, bir hecanı bildirir. Hər bir yazı forması ilə müəyyən sözlər yazılsa da, bir çox hallarda eyni mətn (cümlə, ifadə) içərisində hər 3 formadan istifadə olunur. Şaquli və üfüqi şəkildə yazılır. Üfüqi şəkildə soldan sağa doğru yazılır və oxunur.*

**1.** Aşağıdakı içki adlarının Azərbaycan dilinə tərcümə edin. (3 bal)

1. バナナと生姜 ___________ **Banan zəncəfil ilə** __
2. バニラ入りホットチョコ **İsti şokolad vanil ilə** ___________
3. ミルク入り茶 _________ **Çay süd ilə** _______________

**2.** Aşağıdakı sözləri yapon əlifbası ilə yazın. (3 bal)

Kəklikotu - _____ タイム ______

Dad - _______ 味 ________

Qara - ________ 紅 __________

**3.** Testlərdə verilmiş Azərbaycan dilindəki ifadələrin yapon yazısı ilə düzgün yazılışını müəyyən edin. (4 bal)

1-Südlü kokteyl (banan dadı)

A) ミルクカクテル（バナナ味）

B) ミルクカクテル（バナナ入味）

C) ミルクカクテル（バナナと味）

D) ミルクカクテルと（バナナ味）

Cavab: **A**

2-Çiyələk vanil ilə

A) イチゴ入りバニラ

B) イチゴバニラ

C) イチゴとバニラ

D) イチゴ入バニラ

Cavab: **C**

3-Qara çay zəncəfil ilə

A) 生姜と紅茶

B) 生姜入り紅茶

C) 生姜入り茶

D) 生姜入紅茶

Cavab: **B**

4-İsti şokolad çiyələk ilə

A) イチゴとりホットチョコ

B) イチゴ入りホットチョコ

C) イチゴりホットチョコ

D) イチゴホットチョコ

Cavab: **B**

**12. Finikiya və yunan əlifbası (12 bal)**

Finikiya yazısı eramızdan əvvəl II minilliyin ortalarında yaranıb və tarixdə ilk əlifba hesab olunur. Hazırda dünyada istifadə olunan bir çox əlifba Finikiya əlifbası və ondan törəmiş yunan əlifbası əsasında yaranmışdır.

Aşağıda qarışıq ardıcıllıqla bəzi Finikiya hərfləri və onlara uyğun gələn – onlardan törəyən yunan hərfləri verilmişdir:



Əsrlər boyu hərf formaları müxtəlif dəyişikliklərə məruz qalsa da, ümumi olaraq söyləmək olar ki, verilən yunan hərflərinin bəziləri qanunauyğun şəkildə müəyyən bir qaydada transformasiya – çevrilmə nəticəsində (çevrilmə №1), digərləri başqa bir qaydada çevrilmə nəticəsində (çevrilmə №2), bəziləri isə bu çevrilmələrin birləşməsi (hər iki qaydanın tətbiq olunması) nəticəsində müvafiq Finikiya hərflərindən yaranmışdır.

**Tapşırıq 1.** (4 bal)

Verilən hərflərdən hansının Finikiya əlifbasına, hansının isə yunan əlifbasına aid olduğunu müəyyən edin. Nəzərə alın ki,  işarəsi (hərfi) yunan əlifbasına aiddir.

**Finikiya hərfləri:** 

**Yunan hərfləri:** 

**Tapşırıq 2.** (2 bal)

Sualın şərtində verilmiş hərflərin siyahısından öncə gələn cümlədə kiçik bir qeyri-dəqiqlik var. Verilmiş hərflərin ümumi sayını nəzərə alaraq, bu qeyri-dəqiqliyin nədən ibarət olduğunu izah edin. (İpucu: Qeyri-dəqiqlik hansı işarə ilə bağlı ola bilər?)

**Qeyri-dəqiqlik ondan ibarətdir ki, O hərfi həm Finikiya, həm də yunan əlifbasında eyni formada mövcuddur. Onu siyahıda iki dəfə təkrarlamaq daha düzgün olardı.**

**Tapşırıq 3.** (6 bal)

Seçdiyiniz yunan hərflərini şərtdə bəhs olunan çevrilmə formalarına uyğun olaraq, 3 qrupda təsnif edin (Finikiya əlifbasındakı qarşılıqları da qeyd olunmaqla). Bu qruplardakı qanunauyğunluğu qısa şəkildə izah edin.

**Çevrilmə №1-ə uyğun olaraq yarananlar:**



Qaydanın izahı: **Hərflər şaquli oxa nəzərən (münasibətdə) əks olunma qaydasında yaranıblar. Buna güzgü əksi də demək olar.**

______________________________________________

**Çevrilmə №2-yə uyğun olaraq yarananlar:**



**Qaydanın izahı: Hərflər saat əqrəbi istiqamətində müəyyən dərəcədə (45°-dən 90° -yə qədər) dönməklə yaranıblar.**

**Hər iki çevrilmə qaydasının tətbiq olunması ilə yarananlar:**



**Qaydanın izahı: Hərflər hər iki qaydaya uy]un olaraq– həm əks olunma, həm də saat əqrəbi istiqamətində dönməklə yaranıblar.**